*Rəcəbli İlknur Rahib oğlu, doktorant,*
*Bakı Biznes Universiteti,*
*Email:irahiboglu@mail.ru*

# AZƏRBAYCAN RESPUBLİKASINDA TAKSİ XİDMƏTLƏRİNİN İNNOVATİV XÜSUSİYYƏTLƏRİ VƏ METODOLOJİ ƏSASLARI

Azərbaycan Respublikasında ölkə iqtisadiyyatının hərtərəfli sürətlə inkişafında nəqliyyat sektorunun payı böyükdür. Nəqliyyat sektoru məhsul və xidmətlərin istehsalı, bölüşdürülməsi və istehlakı sahəsində iqtisadiyyatın fəaliyyət növlərini əhatə edir və bütün iqtisadi fəaliyyətlərin məcmusunda rolu çox böyükdür. Azərbaycan respublikasında nəqliyyat sisteminə əsasən taksi xidmətləri öz əksini tapmışdır. Nəqliyyatda

sektorunda taksi xidməti ilə bağlı olan prosesləri təhlil edərkən görərik ki, respublikamızda bir çox taksi şirkətləri fəaliyyət göstərir və yeni taksi şirkətlərinin sayı gün-gündən çoxalır. Respublikamızda olan taksi şirkətlərində mobil tətbiqin yaradılması prosesi ilə yanaşı olaraq bu tətbiqdən yararlanan taksi şirkətlərinin sayı çoxdur və aşağıdakı cədvəldə şirkətlərin siyahısı aşağıdakılardan ibarətdir:

| Şirkət | Əlaqə/Tətbiq (android və ios ) |
| --- | --- |
| 189 taksi | 189/mobil tətbiq |
| Bolt | Mobil tətbiq və çağrı mərkəzi |
| Uber | Mobil tətbiq |
| Ekonom taksi | *9111 və mobil tətbiq |
| Maksim/Xan/Omega | *2111/*8777/*0404 |
| 158 taksi | 158/mobil tətbiq |

***Şəkil 1. Respublikamızda fəaliyyət göstərən taksi xidmətlərinin siyahısı [3].***

“Ekonom taksi” şirkətinin mobil tətbiqin hazırlanması prosesi aşağıdakı mərhələlərdən keçir:

– bu mərhələdə əsasən ilkin mərhələ sayılır və özündə mobil tətbiqin konseptinin qurulub, hazırlanması, gələcəkdə planlaşdırılan addımların müəyyən edilməsi, mobil tətbiqin gələcək dövrlərdə moneterezasiya yollarının araşdırıb tapılması prosesini özündə birləşdirir;

– mobil tətbiq sisteminin işlənib ərsəyə gətirilməsi zamanı bu mərhələdə əsasən ekran ölçüləri götürülür, interfeysinin hansı formada olub-olmaması müəyyən edilir..

“Bolt” - bu Avropanın sürətlə inkişaf edən 3 şirkəti reytinqinə daxil olub. Bolt şirkəti Estoniya ölkəsinə mənsub olan şirkətdir. Şirkət hal-hazırda Avropa, Afrika, Qərbi Asiya, Latın Amerikasında 45 ölkədə yerləşən və 300-dən çox şəhərdə, hətta Azərbaycanın Bakı, Gəncə və Sumqayıt şəhərlərində fəaliyyət göstərir. Şirkətin 75 milyondan çox müştərisi var və 1.5 milyon sürücü Bolt-dan gedişlər təklif etmək üçün istifadə edir. Bolt şirkəti 2013-cü ilin avqustun 3-də əsası qoyulmuşdur. Azərbaycanda isə “Bolt” şirkəti 2017-ci ildən fəaliyyət göstərir. Şirkət öz gəlirlərini 3 il ərzində 12860% yüksəltməyi bacarmışdır. Bu cür göstəricilərə əsaslanaraq “Bolt” şirkəti Avropa ölkəsində sürətlə böyüyən şirkətləri arasında ilk üçlüyə layiq görülmüşdür. Birinci yeri İngiltərənin kiçik, orta biznes üçün nəzərdə tutulmuş OakNorth Bank-ı, ikinci yeri isə Finlandiyanın yemək sifarişi servisi Wolt tutur. OakNorth Bank 3 il ərzində öz gəlirini 37423%, Wolt servisi isə 15642% yüksəldib [4].

“Uber”- Uber, baş ofisi San Fransiskoda, Kaliforniyada yerləşən Amerika beynəlxalq nəqliyyat şəbəkəsi şirkətidir. Onun xidmətlərinə götürmə, qida çatdırılması (Uber Eats), bağlama çatdırılması, kuryer xidməti, yük daşımaları daxildir. 28 may 2015-ci il tarixinə bu xidmət dünyanın 58 ölkəsində və 300 şəhərində mövcuddur [4].

Nəticə etibarı ilə qeyd etmək olar ki, respublikamızda hal-hazırda fəaliyyət göstərən bu şirkətlərin sayı günü-gündən çoxalır və taksi xidmətində şirkətlər arasında olan rəqabətdə artır. Demək olar ki, hər bir taksi xidməti öz xidməti ilə seçilir. Hər bir şirkətin öz mobil tətbiqi göstərə biləcəyi xidmət növləri mövcuddur. Azərbaycan Respublikasında Nəqliyyat sektorunun inkişaf etməsi həm sosial həmdə iqtisadi həyatına, əhalinin rifahının yüksəlməsinə böyük təsir göstərir.

## İstifadə olunmuş ədəbiyyat:

1. Məmmədov Y.Ə. Avtomobil. İstismar xüsusiyyətləri nəzəriyyəsi. Naxçıvan Universiteti.- 1998.

2. (https://president.az/az/articles/view/53407 ).

3. (https://banker.az/bakida-taksi-sirketler-qazanir-yoxsa-suruculer/).

4. (https://technote.az/texnologiya-xeberleri/bolt-taksi-servisi-avropanin-suretle-boyuyen-3-sirketi-reytinqine-daxil-oldu).